1_Layout 1 12.06.2014 9:45 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 11 (429)

15 iyun

2014-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# TALEYİN XALQIMIZA BƏXŞ ETDİYİ TARİXİ GÜN:
# 15 İYUN - MİLLİ QURTULUŞ GÜNÜ

***...Biz o illəri yaxşı xatırlayırıq və bu gün qonşuluqda baş verən hadisələri izləyərkən yenə də əminəm ki, hər bir Azərbaycan vətəndaşı o illərə qayıdır, o illəri xatırlayır və bir daha əmin olur ki, Azərbaycan xalqının böyük xoşbəxtliyi ondan ibarət idi ki, xalqımız həlledici anlarda düzgün seçim etmişdir, müdriklik göstərmişdir və Ulu Öndərə üz tutub onu hakimiyyətə dəvət etmişdir. Əgər Heydər Əliyev o illərdə Azərbaycan rəhbərliyinə gəlməsəydi, ölkə tamamilə dağıla bilərdi.***

***Ona görə 1993-cü il əslində real müstəqilliyimizin ilk ili olmuşdur. Məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, təcrübəsi, dünyagörüşü və düşünülmüş siyasəti nəticəsində Azərbaycan o ağır vəziyyətdən çıxa bildi, sabitlik yarandı və inkişaf dövrü başlandı. Qanunsuz silahlı birləşmələr tərk-silah edildi, separatçı qüvvələrə böyük zərbə vuruldu və Azərbaycan inkişaf yoluna qədəm qoydu.***

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***



Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur.

1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə daxili vəziyyət gərginləşdi və hakimiyyət böhranı yarandı. İctimai həyatın bütün sahələrində xaos, hərcmərclik baş alıb gedirdi. Orduda da vəziyyət ağırlaşırdı. Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı. Gənc respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə son həddə çatmışdır. 1992-ci ilin mayın 14-də hakimiyyəti ələ keçirən Xalq Cəbhəsi ilk gündən özünün qeyri-sağlam fəaliyyəti ilə ölkəni idarə edə bilməyəcəyini göstərirdi. 1993-cü ilin yayında Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yarandı.

Vətənin belə ağır günündə xalq öz görkəmli oğlunu - Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Heydər Əliyev xalqın və hakim dairələrin təkidli dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəldi.

Ümummilli Lider Heydər Əliyev qısa zaman ərzində Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bildi.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi.

Bu dönüş xalqın istəyi, tarixin zərurəti idi. Bu qayıdış insanların qəlbinə bir inam və rahatlıq toxumu səpdi, ölkənin xilas olduğuna inamı artırdı. Beləliklə, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Bakıya qayıdaraq Azərbaycan parlamentinin sədri seçildiyi gün – 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu təqvim Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Çünki bu gün olmasa idi, nə Azərbaycan, nə də müstəqil dövlət olmayacaqdı. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı Azərbaycan dövlətini, müstəqilliyini, xalqımızın qürurunu, tarixini, bu gününü özünə qaytardı.

1997-ci ilin iyununda Milli Məclis tərəfindən 15 iyun tarixi Milli Qurtuluş Günü elan edilmişdir.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranıb, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanıb. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmış, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salınmış, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunmuşdur.

Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi o ağır günlərdə Heydər Əliyevin xalqın iradəsi ilə ölkə rəhbərliyinə qayıtması Azərbaycan Respublikasını məhv olmaqdan xilas etdi. Bu, əsl mənada, "ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" deyən vətən oğlunun öz xalqı, öz vətəni qarşısında misilsiz fədakarlığı idi.

Onun apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olub.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlayıb.

Ümummilli Liderin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilib. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı əməkdaşlıq prinsipləri təşkil edib.

Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. O, Azərbaycanın tarixi inkişaf prosesinə təkan vermişdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaradıb.

**Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq.**

## BU SAYIMIZDA:


DAXİLİ QOŞUNLARIN İNTERNET SƏHİFƏSİ YARADILIB — *səhifə 2-də*

"ATLETLƏR KƏNDİ"NİN MÜHAFİZƏSİ YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN EDİLMİŞDİR — *səhifə 2-də*

BİR DÖYÜŞ XATİRƏSİNİN SORAĞI İLƏ... — *səhifə 3-də*

MÜDAVİMLƏR GİZİR HAZIRLAYAN KURSU BAŞA VURMUŞLAR — *səhifə 3-də*

İDMAN XƏBƏRLƏRİ: *17072 SAYLI HƏRBİ HİSSƏ BİRİNCİ OLDU* — *səhifə 4-də*


# DAXİLİ QOŞUNLARIN HƏRBİ QULLUQÇULARI ÜÇÜN YENİ YAŞAYIŞ KOMPLEKSİ İSTİFADƏYƏ VERİLDİ



**Mayın 28-də - Respublika Günü Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Nərimanov rayonu ərazisində yerləşən "N" saylı hərbi hissəsinin ərazisində zabit və gizirlər üçün yeni tikilmiş yaşayış kompleksinin istifadəyə verilməsinə həsr olunmuş mərasim keçirilmişdir.**

Tədbirdə respublikanın Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov iştirak etmişdir.

Əvvəlcə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov general-polkovnik Ramil Usubovu qarşılamış, şəxsi heyətin mərasimə hazır olması barədə raport vermişdir.

Sonra general-mayor Ş.Məmmədov çıxış edərək yeni kompleksin açılışının Daxili Qoşunların həyatında əlamətdar günlərdən biri, bunun Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrə, o cümlədən Daxili Qoşunlara xüsusi diqqət və qayğısının nəticəsi kimi qiymətləndirmiş, hərbi qulluqçular adından ölkə rəhbərliyinə dərin minnətdarlığını bildirmişdir.

Qeyd olunmuşdur ki, inşasına 2011-ci ilin oktyabr ayında başlanmış 12 mərtəbəli yeni kompleksin uşaq bağçası da daxil olmaqla, ümumi sahəsi 9500 kvadratmetrdir. Binada, ümumilikdə, 102 mənzil var və onların hər biri zəruri avadanlıqlarla təchiz edilmişdir.

Daha sonra Daxili İşlər Naziri Ramil Usubov çıxış edərək tədbir iştirakçılarına ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin salamlarını və təbriklərini çatdırmış, yeni mənzillərin sahiblərini və ailə üzvlərini təbrik etmiş, onlara xoşbəxtlik, cansağlığı və uğurlar arzulamışdır.

O, zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkənin ictimai-siyasi, iqtisadi həyatında, ordu quruculuğunda böyük uğurlar qazanıldığını, daxili işlər orqanlarının maddi-texniki bazasının daha da möhkəmləndiyini, hərbi qulluqçuların sosial-məişət şəraitinin ilbəil yaxşılaşdığını vurğulamışdır. Nazir demişdir ki, son illər Daxili Qoşunlar üçün də müxtəlif təyinatlı onlarca obyekt, hərbi şəhərcik, o cümlədən hərbi qulluqçular üçün yeni yaşayış kompleksləri, əsgər kazarmaları, müasir avadanlıqlarla təchiz edilmiş tibb məntəqələri və s. tikilərək istifadəyə verilmişdir. Bildirilmişdir ki, yüksək səviyyədə inşa olunan yeni yaşayış kompleksinin, həmçinin uşaq bağçasının istifadəyə verilməsi də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi böyük diqqət və qayğısının bariz nümunəsidir.

Nazir kompleksin rəmzi açılışını bildirən lenti kəsmiş, buradakı uşaq bağçasında körpələr üçün yaradılmış şəraitlə yaxından tanış olmuş, eyni zamanda, hərbi qulluqçulara verilən mənzillərə baxmışdır.

Daxili Qoşunların yeni tikilidə mənzillə təmin olunan zabit və gizirləri, onların ailə üzvləri göstərilən ali diqqət və qayğıya, hərbi qulluqçuların sosial rifah halının, mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılmasına görə ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

**Mətbuat xidməti**

2_Layout 1 12.06.2014 9:46 Page 1



# MİNNƏTDARLIQ

**Hörmətli Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı!**

Oğlum Əkbərzadə Mətin Razim oğlu Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Hərbi hazırlıq" fakültəsini bitirdikdən sonra hərbi xidmətə göndərilmişdir. O, Daxili Qoşunların Lənkəran şəhərində yerləşən "N" saylı hərbi hissəsində hərbi and içərək xidmətə başlamışdır.

Əsgər həyatı gənclərimiz üçün ilk anda çətin olsa da, Vətənə xidmət etməyin şərəfli bir iş olduğu komandirlər tərəfindən onlara aşılanmışdır. Oğlum da digər əsgər yoldaşları kimi fiziki və mənəvi cəhətdən sağlam xidmət etməkdədir.

Oğlumla söhbət edərkən komandirlərimizin nə qədər mənəvi, insani keyfiyyətlərə malik olduğunu eşidirəm.

Zabitlərin əsgərlərə qarşı son dərəcə qayğıkeş münasibəti məndə belə bir əminlik yaratdı ki, Azərbaycan əsgəri böyük diqqət və qayğı ilə əhatə olunub.

Əsgər atası kimi bir daha komandir heyətinə dərin minnətdarlığımı bildirir, onlara hərbi xidmətlərində uğurlar arzulayıram!

**Cənab Ali Baş Komandan!**

Bir valideyn kimi övladlarımız üçün yaradılmış hərtərəfli şəraitə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

**Həsənov Razim, əsgər atası**
**Bakı şəhəri Yasamal rayonu**

# AZƏRBAYCAN GƏNCLƏRİNİN VII FORUMU KEÇİRİLMİŞDİR

## *Forumda Daxili Qoşunların zabiti də iştirak etmişdir*

Azərbaycan Respublikası Prezidentinin 07 iyul 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının icrası ilə əlaqədar olaraq, 2-3 iyun tarixlərində Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Gənclərinin 7-ci forumu keçirilmişdir. Forumda müxtəlif regionlarda fəaliyyət göstərən icra hakimiyyəti orqanlarının, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin 300-ə qədər nümayəndəsi, müvafiq güc strukturlarından hərbi qulluqçular, o cümlədən Daxili Qoşunların zabiti kapitan Arzu İmanov iştirak etmişdir.

Forum çərçivəsində dövlət tərəfindən gənclərlə bağlı görülən işlər, əldə edilmiş nailiyyətlər və yeni vəzifələrin müəyyən edilməsi ətrafında müzakirələr aparılmışdır. İki gün davam edən tədbirdə gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması mövzusuna xüsusi yer ayrılmışdır. Orta məktəblərdə tədris olunan hərbi çağırışaqədərki hazırlığın vəziyyəti barədə çıxışlar edilmiş, gəncləri orduda xidmət etməyə həvəsləndirmənin yolları, bu istiqamətdə şagirdləri mütəmadi olaraq hərbi hissələrdə yaradılmış şəraitlə tanış etmək təklif olunmuşdur. Eyni zamanda, bu işdə qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin üzərinə də mühüm vəzifələrin düşdüyü qeyd edilmişdir.

**gizir X.Tağıyeva**

# BAXIŞIN NƏTİCƏLƏRİ MÜSBƏT QİYMƏTLƏNDİRİLİB

## *Ombudsman Aparatının əməkdaşları tərəfindən hərbi hissələrə növbəti baxışlar keçirilib*

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının rəhbərliyi ilə razılaşdırılmış plan-cədvəllərə uyğun olaraq, Ombudsman Aparatının əməkdaşlarının hərbi hissələrə başçəkmələri mütəmadi qaydada davam etdirilir.

Bu günlərdə Ombudsman Aparatının Hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektorunun müdiri Fəzail Həsənov, həmin sektorun əməkdaşı Adil Hacıyev və İşgəncələrin qarşısının alınması şöbəsinin əməkdaşı Vüqar Heydərov müvafiq plan üzrə qoşunlarımızın Zaqatala, Şəki və Quba rayonlarında yerləşən hərbi hissələrində baxışlar keçiriblər.

Baxışların məqsədi hərbi qulluqçuların məişət şəraiti ilə tanış olmaq, onlarla rəftar qaydaları və insan hüquqlarının müdafiəsi üzrə vəziyyətin araşdırılması olub.

Hərbi hissələrin bütün xidmət sahələri və bölmələrinə baxış keçirilib, hərbi qulluqçular üçün yaradılmış şərait, qidalanmanın vəziyyəti, habelə onlar arasında rəftar qaydaları və tibb məntəqəsində aparılan müalicənin keyfiyyəti müsbət qiymətləndirilib.

Aparatın əməkdaşları şəxsi heyətlə insan hüquqları, o cümlədən hərbi qulluqçuların hüquqları, ombudsmanın bu istiqamətdə fəaliyyəti, mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr barədə söhbətlər aparıb, çoxsaylı sualları cavablandırıblar. Onlar respublikamızda hüquqi maarifləndirmə, ideoloji və təlim-tərbiyə işlərinin, şəxsi heyətin yüksək döyüş ruhunun və psixoloji durumunun, həmçinin vətənpərvərlik hissinin gücləndirilməsi sahəsində aparılan işlərin əhəmiyyətini vurğulayıblar.

Görülən işlərin daha da təkmilləşdirilməsi üçün hərbi hissələrin komandanlığına müvafiq tövsiyələr verilib.

**Mətbuat xidməti**

# DAXİLİ QOŞUNLARIN İNTERNET SƏHİFƏSİ YARADILIB

## *Rəsmi internet səhifəsi "www.dq.mia.gov.az" ünvanında yerləşdirilib*




Mayın 30-dan etibarən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının "www.dq.mia.gov.az" ünvanında rəsmi internet səhifəsi işə başlamışdır.

İnternet səhifəsinin yaradılmasında əsas məqsəd Daxili Qoşunların ictimaiyyətlə əlaqələrinin səmərəliliyinin artırılması, habelə qoşunların həyatında baş vermiş yeniliklər barədə cəmiyyətin mütəmadi olaraq daha dolğun məlumatlandırılmasından ibarətdir.

Səhifə müvafiq sahələr üzrə kataloqlar, faydalı informasiya resursları və linklərlə təmin olunmuşdur.

Saytda Ümummilli Lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin həyat və fəaliyyətini əks etdirən materiallarla yanaşı, Daxili Qoşunların tarixi, döyüş yolu, xidməti-döyüş fəaliyyətinin müxtəlif istiqamətləri geniş işıqlandırılmışdır.

İnternet səhifəsində Daxili Qoşunların Ali Hərbi Məktəbi, Hərbi qospitalı, Nümunəvi-göstərici hərbi orkestri və muzeyi haqqında geniş məlumatlar verilmiş, o cümlədən qoşunların mətbu orqanı olan "Əsgər" qəzetinin elektron variantı və fotoalbom yerləşdirilmişdir.

Eyni zamanda səhifənin istifadəçiləri müvafiq hərbi qanunvericilik bazasından da faydalana biləcəklər.

Vətəndaşlar sayt vasitəsilə onları maraqlandıran məsələlərlə bağlı Daxili Qoşunların Baş İdarəsinə onlayn müraciət etmək imkanına malik olacaqlar.

**Mətbuat xidməti**

***Mayın 27-də Respublika Günü münasibətilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Səbail rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə qoşunların "N" saylı hərbi hissəsində təntənəli mərasim keçirilmişdir.***

# SƏBAİL MƏKTƏBLİLƏRİ RESPUBLİKA GÜNÜNÜ HƏRBİ HİSSƏMİZDƏ QEYD ETDİLƏR



Daxili Qoşunların Komandanlığı və Səbail rayon rəhbərliyinin iştirakı ilə keçirilən tədbirdə rayon ictimaiyyəti, rayondakı ali məktəblərin tələbələri, orta məktəblərin yuxarı sinif şagirdləri və qoşunların şəxsi heyəti iştirak etmişlər.

Əvvəlcə qonaqlar Daxili Qoşunların torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə həlak olmuş şəhidlərinin şərəfinə ucaldılmış abidə önünə gül dəstələri düzmüşlər.

Sonra tələbə və şagirdlər, müəllimlər Səbail rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov və Daxili Qoşunların Komandanının 1-ci müavini - Qərargah rəisi general-mayor Şirin Xəlilovun iştirakı ilə hərbi hissənin əsgər yataqxanasına və xidməti otaqlara baxmışlar. Eyni zamanda Daxili Qoşunların istifadəsində olan müasir silah və hərbi texnikalar barədə məktəblilərə məlumat verilmiş, silahlardan istifadə qaydaları, əsgər və zabitlərin müxtəlif hava şəraiti üçün nəzərdə tutulmuş xüsusi geyim dəstləri və qorunma vasitələri nümayiş etdirilmişdir.

Daha sonra qonaqlar xüsusi təyinatlı dəstənin nümunəvi-göstərici çıxışına tamaşa etmişlər.

Hərbi hissənin sıra meydanında təşkil olunmuş təntənəli toplantıda çıxış edən Səbail rayon İcra Hakimiyyətinin başçısı A.Əsgərov öncə tədbir iştirakçılarını Respublika Günü münasibəti ilə təbrik etmiş, Ümummilli Lider Heydər Əliyevin ölkəmizdə ordu quruculuğu işindəki əvəzsiz xidmətlərindən, Ulu Öndərin səyləri nəticəsində hələ sovetlər dönəmində respublikamızda peşəkar hərbçilərin yetişdirilməsi məqsədi ilə Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılmasından danışmış, bu gün ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən Azərbaycan Ordusunun möhkəmlənməsi, müasir silah və texnika ilə təminatı, bir sözlə maddi-texniki bazanın gücləndirilməsi istiqamətində görülən işlər barədə məlumat vermişdir. Bu kimi tədbirlərin keçirilməsinin gənc və yeniyetmələrin hərbi-vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığını, məktəblilərin hərbi xidmətə hazırlığında mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdıran A.Əsgərov Səbail rayonu ilə DİN Daxili Qoşunlar arasındakı dostluq əlaqələrinin daha da möhkəmləndiyi vurğulamışdır.

Bakı şəhəri üzrə Təhsil İdarəsinin rəis müavini Hüseyn Əsgərov da hərbi hissənin şəxsi heyətini və iştirakçıları Respublika Günü münasibəti ilə təbrik edərək əsgərlərimizə xidmətdə uğurlar arzulamışdır.

Daxili Qoşunların Komandanının 1-ci müavini - Qərargah rəisi, general-mayor Ş.Xəlilov Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının əlamətdar bayram - 28 may Respublika Günü münasibəti ilə təbrikini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır. Gələcəyimiz olan gənc və yeniyetmələrin ulu əcdadlarımızın ənənələrinə sədaqət ruhunda tərbiyə olunduğunu deyən general-mayor Ş.Xəlilov Ümummilli Lider Heydər Əliyevin vətənpərvərliklə bağlı söylədiyi fikirlərə istinad edərək bildirmişdir ki, hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir.

Çıxışlardan sonra xidmətdə fərqlənən əsgər və zabitlərin bir qrupu Səbail rayon İcra Hakimiyyətinin qiymətli hədiyyələri ilə mükafatlandırılmışlar.

Rəsmi hissədən sonra qonaqlar hərbi hissənin şəxsi heyəti ilə birlikdə nahar etmişlər. Onlar yeməklərin keyfiyyətini yüksək qiymətləndirmişlər.

Sonda respublikanın tanınmış incəsənət xadimlərinin iştirakı ilə konsert proqramı təşkil olunmuşdur.

**"Əsgər"**

# "ATLETLƏR KƏNDİ"NİN MÜHAFİZƏSİ YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN EDİLMİŞDİR

***Bu gün Azərbaycan dünyada həm də güclü idman ənənələri ilə tanınır. Çünki idmanın inkişafı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkəmizin mədəni-kütləvi tədbirlərin, beynəlxalq musiqi festivallarının, eləcə də mötəbər idman yarışlarının paytaxtına çevrilməsi bunu deməyə əsas verir.***

***Dünyanın ən nüfuzlu idman turnirləri siyahısına 2015-ci ildə ilk dəfə keçiriləcək Avropa Yay Olimpiya Oyunları da əlavə olundu. Belə bir mötəbər yarışa ilk dəfə Azərbaycanın ev sahibliyi etməsi dövlətimizin beynəlxalq aləmdə olan nüfuzundan xəbər verir. Bu, eyni zamanda ölkədəki əmin-amanlığın, daxili sabitliyin göstəricisidir. Təbii ki, ictimai asayişin qorunub saxlanılmasında digər hüquq-mühafizə qurumları ilə yanaşı, Daxili Qoşunların da əməyi danılmazdır.***





May ayının 26-dan start götürmüş Gənclər arasında atletika üzrə Avropa Olimpiya Təsnifat Yarışlarının və Bədii gimnastika üzrə Avropa çempionatının keçirilməsi zamanı ictimai asayişin təmini üzrə Daxili Qoşunların hərbi qulluqçuları da xidmətə cəlb olunublar.

Xidmətin təşkil olunduğu Tofiq Bəhramov adına Respublika Stadionu və xarici ölkə idmançılarının yerləşdiyi "Atletlər kəndi" barədə polkovnik İnqilab Muradov bir sıra məqamlara aydınlıq gətirdi. Qeyd etdi ki, xidmət Daxili Qoşunların Bakı şəhərində yerləşən iki hərbi hissəsinin şəxsi heyəti tərəfindən təşkil olunub.

Nəzarət buraxılış məntəqələrində mühəndis-istehkam qrupunun iştirakı ilə yoxlamalar keçirilir. Digər sahələrdə isə kəndin kənarından yarışların keçirilməsi və idmançıların qaldığı ərazilərin etibarlı mühafizəsi təmin edilir. Xidmət 24 saat müddətində həyata keçirilir.

Şəxsi heyətin yüksək peşəkarlıq və ayıq-sayıqlıq nümayiş etdirdiyini deyən polkovnik İ.Muradov bir nömrəli nəzarət buraxılış məntəqəsində şübhə doğuran "Qazel" markalı avtomobilin mühəndis-istehkam qrupu tərəfindən saxlanıldığını və aidiyyəti ərazi üzrə polis orqanlarına təhvil verildiyini vurğuladı.



Hərbi qulluqçuların yüksək nizam-intizam nümayiş etdirdikləri barədə məlumat verən polkovnik Mətləb Qənbərov onlarla şəxsən fərdi və kollektiv söhbətlərin apardığını, mənəvi-psixoloji durumlarının yüksək olduğunu qeyd etdi. Əlavə etdi ki, xidmətdə olan şəxsi heyətin nizam-intizamı daima diqqət mərkəzində saxlanılır və mütəmadi olaraq onlarla döyüş ruhunun, habelə döyüş əzminin artırılması istiqamətində söhbətlər aparılır. Bu da hərbi qulluqçulara öz müsbət təsirini göstərir.

Kütləvi tədbirlər zamanı təhlükəsizliyin, ictimai asayişin qorunub saxlanılmasında kifayət qədər təcrübəsi olan Daxili Qoşunlar bu beynəlxalq yarış zamanı da üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir. Xidmət zamanı göstərdikləri əsl peşəkarlıq Daxili Qoşunların daxili sabitliyin təminatçısı olduğunun bariz nümunəsidir.

Məlumat üçün bildirək ki, Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən yarış artıq başa çatmışdır.

İyunun 13-dən 15-dək Milli Gimnastika Arenasında keçirilən Bədii gimnastika üzrə Avropa çempionatı zamanı Daxili Qoşunların hərbi qulluqçuları ictimai asayişin təmini üzrə xidməti yüksək səviyyədə davam etdirmişlər.

**baş leytenant T.Əlizadə**

3_Layout 1 12.06.2014 9:48 Page 1



Şəhidlərimiz

# ÖLMƏZ QƏHRƏMAN...

***Baş verən tarixi hadisələrdən bəziləri müəyyən dövrdən sonra yaddan çıxır. Lakin tarixdə elə hadisələr olur ki, heç vaxt unudulmur. Nəsillər bir-birini əvəz etdikcə bu tarixi gün daha çox xatırlanır, insanları işıqlı bir zirvəyə doğru aparır. Həmin zirvə şəhidlik zirvəsidir. Çünki şəhidlər Vətəni, milləti naminə şüurlu surətdə canlarını fəda edən insanlardır. Onlar yüksək əxlaqi keyfiyyətə malik olmaqla, qəlblərində Vətənə, millətə sonsuz sevgi yaşadanlardır.***

***Azərbaycan xalqı hər zaman öz oğulları, şəhidləri ilə fəxr edib, qürur duyub. Onlardan biri də Milli Qəhrəman Ruslan Həmid oğlu Muradovdur.***

O, 1973-cü ilin iyun ayının 27-də Mingəçevir şəhərində dünyaya göz açıb. 1990-cı ildə 10 saylı orta məktəbi bitirib. Hələ gənc yaşlarından vətənpərvərlik ruhunda böyüyən Ruslan məktəbdə oxuduğu illərdə də ən çox hərbi hazırlıq fənninə üstünlük verib. Bütün silah-sursatların xüsusiyyətlərini öyrənməyə can atıb. Sanki hələ o vaxtdan həyatının cəbhə ilə sıx bağlı olacağını hiss edirdi.

...Erməni quldurlarının torpaqlarımıza qarşı təcavüzü, soydaşlarımızın öz yurd-yuvalarından didərgin düşməsi hər saniyə Ruslanda düşmənə nifrət yaradırdı. O, hər zaman intiqam almaq hissi ilə yaşayırdı...

Nəhayət, Ruslanın gözlədiyi gün gəlib çatdı.

1992-ci il yanvar ayının 22-də Mingəçevir hərbi komissarlığından hərbi xidmətə çağırılarkən bir an olsun tərəddüd etmədi. Bu tarix onu əbədilik zirvəsinə aparan yolun başlanğıcı idi.

Ruslanın döyüş yolu Qarabağın ən qanlı bölgələrindən başladı. Arxa cəbhədə bir müddət hazırlıq keçdikdən sonra Ağdamın Papravənd kəndinə göndərilir. Kəndin işğalçılardan azad edilməsi uğrunda gedən döyüşlərdə böyük şücaət göstərir. Öz cəsarəti, qorxmazlığı ilə düşmənin canına vəlvələ salır.


Muradov Ruslan Həmid oğlu

Ruslan iştirak etdiyi döyüşlərdə dəfələrlə silahdaşlarını ağır vəziyyətlərdən çıxarmağa da müvəffəq olub. Bir dəfə döyüşçülərimizin olduğu hərbi təyyarə vurulmuş və erməni işğalı altındakı kəndlərdən birinin ərazisinə düşmüşdü. Düşmən tərəfindən əsir götürülmüş döyüşçülərimizi xilas etmək üçün başlanan genişmiqyaslı əməliyyatda Ruslan öz rəşadəti, qəhrəmanlığı ilə bütün yoldaşlarına əsl nümunə olmuş, misilsiz şücaət göstərmişdi.

1992-ci ilin avqust ayının 22-də isə Ağdam rayonunun Gültayaq kəndi uğrunda gedən döyüşlərdə düşmən ordusunun texnikasını, canlı qüvvəsini məhv edir. Lakin bu döyüş təəssüf ki, onun cəbhədəki son döyüşü olur.

Ruslan Məmmədovun məzarı Mingəçevir şəhərinin Şəhidlər Xiyabanındadır. Mingəçevirdəki 15 saylı orta məktəb şəhidimizin adını daşıyır.

Cəbhədə cəmi 7 ay döyüşməsinə baxmayaraq, Ruslan igidliyi, cəsarəti ilə silahdaşlarının dərin rəğbətini, sevgisini qazanmışdı. Hər zaman onları qələbəyə ruhlandırır, hər söhbətində torpaqlarımızın tezliklə düşmən tapdağından azad olunacağına inamını ifadə edirdi.

Böyük qələbə gününü yaşamaq Ruslana nəsib olmasa da, onun kimi minlərlə cəsur hərbçilərimizin varlığı Azərbaycanın istənilən vaxt öz torpaqlarını azad etməyə hazır olduğuna əsaslı sübutdur.

**gizir X.Tağıyeva**

# NÜMUNƏVİ XİDMƏT

## HƏRBÇİ RƏSSAM

***Hər bir gəncin Vətən qarşısında müqəddəs borcu var. Bu, əsgəri xidmətdir ki, hamı bu məktəbdən keçməlidir. Bu gün Daxili Qoşunların sıralarında xidmət edən əsgərlər arasında kifayət qədər istedadı ilə fərqlənən hərbi qulluqçu var.***



Əsgər Təbriz Eyyubzadə də öz istedadı ilə yoldaşlarının, eləcə də komandirlərin rəğbətini qazanmışdır. O, istedadlı rəssamdır.

T.Eyyubzadə nizam-intizamı və nümunəvi xidməti ilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularındandır. Təbriz 1994-cü il yanvar ayının 24-də Qəbələ rayonunun Nic qəsəbəsində anadan olub. Şəki Pedoqoji Kollecinin "Təsviri İncəsənət, rəsmxət" fakültəsində ali təhsil alıb.

2013-cü ilin iyul ayından Daxili Qoşunlarda müddətli həqiqi hərbi xidmətdədir. Təbriz daha çox vətənpərvərlik mövzusunda rəsmlər çəkməyə üstünlük verir. Təbii ki, bu, onun Vətənə olan sevgisindən irəli gəlir. Təbrizin bu bacarığı komandirlərinin də diqqətindən kənarda qalmayıb. O, bölüyün divar qəzetinin rəssamı təyin edilib. İşinin son dərəcə vurğunu olan Təbrizin rəsmləri komandirlər tərəfindən dəfələrlə qiymətləndirilmişdir. Ötən ay divar qəzetinin Ümummilli Lider Heydər Əliyevin 91 illik yubleyinə həsr olunmuş buraxılışında çəkdiyi portretə görə hərbi hissə komandiri tərəfindən "Təşəkkür"lə mükafatlandırılmışdır.

Bir sözlə, əsgər T.Eyyubzadə bu istedadı ilə yanaşı, komandirlər tərəfindən verilən hər bir tapşırığın öhdəsindən layiqincə gəlir.

**kiçik çavuş V.Şirəliyev**

# MÜDAVİMLƏR GİZİR HAZIRLAYAN KURSU BAŞA VURMUŞLAR



İyunun 6-da Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin gizir hazırlayan kursun 11-ci mərhələ məzunlarının buraxılış mərasimi keçirilmişdir.

Mərasimdə Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədov, Şəxsi Heyət üzrə İdarədə Kadrlar şöbəsinin rəisi-idarə rəisinin müavini polkovnik Nəsir Hüseynov və Daxili Qoşunlarda ezamiyyətdə olan Türkiyə Respublikası Jandarm Qüvvələrinin zabitləri iştirak etmişlər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin müdafiəsi uğrunda döyüşlərdə həlak olmuş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Azərbaycanın Dövlət himni səsləndirilmişdir.

Kurs müddətində I yerə layiq görülmüş gizir Tural Hüseynov mərasim iştirakçıları qarşısında çıxış etmişdir. Bu müddətdə müvafiq bilik və təcrübənin qazanıldığını deyən gizir T.Hüseynov tabeçiliyində olan şəxsi heyətə nümunə olacağına və qarşıya qoyulmuş tapşırıqları daha əzmlə yerinə yetirəcəyinə söz vermişdir.

Sonra çıxış üçün söz Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədova verilmişdir. O qeyd etmişdir ki, Daxili Qoşunların tarixində artıq 11-ci dəfədir ki, gizir hazırlayan kursun məzunlarının buraxılışı qeyd olunur və bu, qoşunların sıralarında peşəkar, hazırlıqlı kadrların artması deməkdir.

Polkovnik Nəsir Hüseynov Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədovun kursu başa vuran müdavimlərə təbrikini və xoş arzularını çatdırmışdır. Təbrikdə vurğulanmışdır ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Silahlı Qüvvələrimizin formalaşması, mətinləşməsi istiqamətində bu gün də məqsədəuyğun islahatlar həyata keçirilməkdədir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev daim Daxili Qoşunların inkişafına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə diqqət və qayğı göstərir.

Məktubda həmçinin qoşunların şəxsi heyətinin formalaşmasında Türkiyə Silahlı Qüvvələrinin, eləcə də Jandarm Komandanlığının zabitlərinin də rolu xüsusi qeyd olunmuşdur.

Polkovnik N.Hüseynov əlavə etmişdir ki, qoşunların kadr potensialının gənc, savadlı və bacarıqlı gizirlərlə formalaşdırılması peşəkarlığın daha da artırılmasına, şəxsi heyətin nizam-intizamının möhkəmlənməsinə öz töhfəsini verəcəkdir.

Sonra kurs dövrünü əla qiymətlərlə başa vuran və I, II, III yerə layiq görülmüş hərbi qulluqçulara şəhadətnamələr təqdim olunmuşdur.

Yaş kötüyünə rəmzi xatirə lövhəsi vurulmuşdur.

Tədbir bədii hissə ilə davam etdirilmişdir.

**"Əsgər"**

# YÜKSƏK NAİLİYYƏTLƏR UĞRUNDA...



Daxili Qoşunların "N" saylı hərbi hissəsinin komendant bölüyü nümunəvi xidməti ilə qoşunlarda qabaqcıllar sırasındadır. Bölüyün əldə etdiyi nailiyyətlərdə şəxsi heyətlə yanaşı, bölük komandiri kapitan Mehman Nəsibovun da rolu danılmazdır.

Bölükdə döyüş hazırlığının qorunub saxlanılması naminə tabeçiliyində olan hərbi qulluqçuların daima öz üzərlərində işlədiyini deyən kapitan M.Nəsibov eyni zamanda məşğələlərin keyfiyyətlə keçirilməsinin təmin edildiyini bildirdi.

Elə bu baxımdan komendant bölüyü xidməti-döyüş fəaliyyətində, hərbi intizamın möhkəmləndirilməsində, döyüş və ictimai-siyasi hazırlığında yüksək nəticələrə əldə etmiş, dəfələrlə mükafatlara layiq görülmüşdür.

Komendant bölüyünün hər bir hərbi qulluqçusu vəzifəsindən irəli gələn tapşırıqları layiqincə yerinə yetirir. Bir sözlə, şəxsi heyət cari ildə də yüksək peşəkarlıq nümayiş etdirmək və daha yüksək uğurlara nail olmaq üçün əllərindən gələni əsirgəmir.

**kiçik çavuş V.Şirəliyev**

# BİR DÖYÜŞ XATİRƏSİNİN SORAĞI İLƏ...

*İllərdir işğal altında qalan torpaqlarımızın həsrətilə yaşamaq çətindir. Özü də həmin torpaqlarda yaşamış və döyüşmüş insanlar üçün bu dərd yükü daha böyük iztirabdır. Bir gün o yurdlara qovuşacağımıza inamı qoruyub saxlamaq və bunun üçün mübarizə aparmaq vətənpərvər insanın öz mənəvi gücünü və iradəsini toparlamasına söykənir. Bu toparlanma hissi əsl vətənpərvərlik meyarıdır. Vətənin güvəndiyi döyüşçünün məqsəd və amalına inamı onu fədakarlığa ruhlandırır. Mən bu hikməti müharibə sınaqlarında gördüm və duydum. Ölümlü-itimli döyüşlərdə həyatını fəda etmiş şəhidlərimiz bu uca mənəvi zirvənin müqəddəsliyini örnək olaraq göstərdilər. Torpaq, onun uğrunda ölən varsa Vətən olur. Şəhid qanı axan torpaq yağı tapdağında qalmayacaqdır. Şəhid məzarları üstündə dediyimiz bu and hərbi and qədər önəmlidir. Bugünkü nəsil üzərinə düşən bu vəzifənin yerinə yetirilməsini gələcək nəsillərə saxlaya bilməz. Onun buna haqqı da yoxdur.*

Müharibə ilə bağlı yazılarımda və çıxışlarımda belə bir məqamı xüsusi vurğulamışam ki, döyüş itkilərimiz, şəhidlərin döyüş yolu, itkinlərimizin və əsir düşənlərimizin taleyi ağrı-acılı qan yaddaşımızdır. Bu mövzuda araşdırmalar, tədqiqatlar həmişə öz aktuallığını qoruyub saxlayacaqdır. Mənim də müharibə yaddaşımda şəhidlər, itkinlər və yaralılarımız haqqında, ayrı-ayrı döyüş məqamlarını yaşadan xatirələrim var. Bəzən bu xatirələri bölüşməyə, bir növ onların yükündən azad olmağa kəskin ehtiyac duyursan. Ancaq bəzən də bu xatirələrlə baş-başa qalmağa daha çox meyillənirsən və elə hisslər, duyumlar qəlb dünyana hakim kəsilir ki, özünə qapılırsan...

Döyüşçü yoldaşlarımın arasında şəhid olanlar az deyil. Elələri də var ki, döyüşlərdə itkin düşüb və onların taleyini həmişə düşünmüşəm. Bu yazıda bir döyüş xatirəsindən söhbət açmaq istəyirəm.

1993-cü ilin iyun ayından başlayaraq ermənilərin Ağdam rayonu ərazisinə hücumları artmışdı. Həmin vaxta qədər düşmən Ağdərə istiqamətində əks hücuma keçərək bir çox yaşayış məntəqələrini və yüksəklikləri ələ keçirmişdi. Həmçinin, hər daşı-qayası bir istehkam olan Kəlbəcəri itirmişdik. Ölkədaxili ictimai-siyasi vəziyyət də çox gərgin idi. Gəncədə baş verən hadisələr ön cəbhədə vuruşan qüvvələrə də öz mənfi təsirini göstərirdi. Ancaq səngərlərdə dayanan oğullar, arxada baş verən bütün bu qarışıqlığa baxmayaraq, düşmənin hücumlarını dəf etmək üçün gücləri çatanı edirdilər.

1993-cü il iyun ayının 17-də Ağdamın Qalayçılar kəndinin müdafiəsində dayanmışdıq. Həmin gün səhər açılandan ermənilər kəndi müxtəlif silahlardan atəşə tutmağa başladı. Hətta kəndin ərazisi və ön mövqelərimiz minaatanların zərbəsinə məruz qaldı. Döyüşün qızğın vaxtında artıq ayrı-ayrı cinahlardakı mövqelərimizin arasında əlaqə kəsilmişdi. Bu ağır döyüşdə Qalayçılara heç bir kömək gəlmədi. Bəzi mövqelərimiz mühasirə vəziyyətinə düşdü. O döyüşdə Elman Məmmədov, Arif Əsgərov, Süleyman Quliyev, İlqar Şirvanov, Maarif Siracov və başqa döyüşçü yoldaşlarım itkin düşdü. Döyüşçülərdən **Ariz Bayramovu** da itkin bilirdik. Ancaq o, işğal olunmuş kənddən gecə vaxtı çıxa bilmişdi. Ariz yaralanmışdı və qospitala göndərildiyindən, onu həmin vaxt görə bilməmişdim. Sonralar hərbi xidmətini başqa hərbi hissədə davam etdirməsi səbəbindən görüşə bilməmişdik. O, 1996-cı ildə hərbi xidmətdən tərxis olundu, mən isə hərbi xidmətdə qaldım. Beləcə, illər ötdü, yolumuz kəsişmədi. Ancaq onu gec də olsa tapıb görüşməyimizi arzulayırdım. Onun Qalayçılarda itkin düşən bəzi döyüşçülərimizlə bir mövqedə olması onların qaranlıq taleyinə işıq sala bilərdi. O ağır döyüşdə onları ən sonuncu görən Ariz olmuşdu. Arizin özünün başına gələnləri də bilmək istəyirdim. Nəhayət, uzun müddət keçsə də, döyüşçü yoldaşımla görüşmək arzum həyata keçdi. Bu yaxınlarda Biləsuvardakı Nərimankəndə-Arizin yaşadığı ünvana getdim. Uzun illərin ayrılığından sonra görüşdük, səngərli günlərimizi yada saldıq. Ariz mənə danışdı ki, Qalayçılar döyüşündə olduğu mövqeni əldə saxlamaq mümkün olmadıqda atışa-atışa kəndin içərilərinə doğru geri çəkiliblər. Bu zaman o, sol baldır nahiyəsindən güllə yarası alıb. Onun yanında olan döyüşçü yoldaşları, o cümlədən, yazıda adlarını çəkdiyim döyüşçülərdən bir neçə nəfəri kənddəki evlərdən birinə sığınıblar və Arizin yarası da burada sarınıb. Ancaq düşmən onların yerini aşkar edib və oranı atəşə tutmağa başlayıb. O vəziyyətdə döyüşçü yoldaşları yaralı Arizi evdə gizlətməyə macal tapıb. Belə ki, evdəki bir qapalı yerdə döyüşün sonuna kimi qalmalı olub. Dediyinə görə, şiddətli atışma səsi kəsildikdə ermənilərin səsini eşidib. Adlarını qeyd etdiyim döyüşçülərdən döyüşdə kimin şəhid olduğunu, kimin yaralı vəziyyətdə əsir düşdüyünü görməyib. Belə ki, gizləndiyi yerdən bunu görmək mümkün olmayıb. Ermənilər evi axtarsalar da, onun gizləndiyi qapalı yeri aşkarlamayıblar. O anlarda keçirdiyi həyəcanı, təlaşı, başının üstünü alan ölüm təhlükəsini, güllə yarasının ağrısını xatırlamaq onunçün çətin idi. Bildirdi ki, o anda oradan sağ-salamat çıxacağına gümanı az olub. "Ermənilər məni tapsaydılar, əsir düşməkdənsə, özümü öldürərdim" - dedi. Ariz qaranlıq düşəndən sonra həmin evi tərk edib. Deyir ki, ermənilər kənddəki evləri yandırırdılar. Alışıb yanan evləri görmək dəhşətli idi. Ermənilər "yandırılmış torpaq" taktikasını Qalayçılarda da tətbiq edib. Ariz qaranlıq olsa da, yenə də öz ehtiyatlılığı, cəsarəti və məharəti sayəsində təhlükəli ərazidən çıxmağa müvəffəq olub. Əraziyə yaxşı bələd olması onun köməyinə yetib. Dediyinə görə, Qalayçılardan çıxarkən kəndin qırağındakı evlərdən birini yandıran erməni əsgərini görüb. Düşmən əsgəri tək imiş. Ariz fürsətdən yararlanaraq, onu sərrast atəşlə məhv edib. Beləcə, gecə vaxtı qonşu kənddəki mövqelərimizə gəlib çıxa bilib.



Ariz Ağdamın və Ağdərənin bir çox yaşayış məntəqələri və yüksəkliklərində şərəfli döyüş yolu keçib. Ənvər Arazov, İlham Ağakişiyev, Oqtay Eynullayev və digər şəhid zabitlərin mərdliyinin, Rüstəm Dəmirov kimi cəsur komandirlərin əzmkarlığının, şəhid Elpərəst Hüseynov (Kobra) kimi döyüşçülərin şücaətinin şahidi olub. "Şəhidlərimizi heç vaxt unutmamalıyıq, onların qisasını almasaq, düşməni torpağımızdan qovmasaq, rahat və qürurlu yaşaya bilmərik" - dedi.

Bu gün müharibə veteranı kimi Ariz Bayramov övladlarına da Vətən sevgisini aşılayır. Onlara döyüşçü qardaşlığına qəlbən bağlılığından da bəhs edir. Arizin kənddə hamı hörmətini saxlayır. Həmişə o fikirdə olmuşam ki, el-oba qədrini bilən şəxs Vətən üçün də can yandırar. İnsanın Vətən sevgisi onun ata ocağından başlayır. Ata ocaqlarımız və el-oba xeyir-duası həmişə bizə qüvvət verib, bundan sonrakı sınaqlarda da belə olacaq.

**Yalçın Abbasov,**
**Daxili Qoşunların Veteranlar Şurasının katibi**

4_Layout 1 12.06.2014 9:49 Page 1



## BİZİM ŞÜAR:

## "MÖHKƏM HƏRBİ İNTİZAM, TƏLİMDƏ VƏ XİDMƏTDƏ YÜKSƏK NAİLİYYƏTLƏR UĞRUNDA!"

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də davam etmişdi. **1922-1923-cü** illərdə "yoldaş" Kirov tərəfindən Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, **1929-cu ildə** Əliheydər Qarayev tərəfindən Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, **1946-cı ildə** Mir Cəfər Bağırov tərəfindən 40 kv.km-lik meşə sahəsi, **1969-cu ildə** Vəli Axundov tərəfindən Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi, **1984-cü ildə** isə Kamran Bağırov tərəfindən Qazax rayonundan torpaq sahəsi ermənilərə verilmişdir.

**1988-ci ildə** Azərbaycanın ərazisi 86,6 min kv.km idi.

**1988-1993-cü illərdə** aşağıdakı ərazilər işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

## BUNLARI BİLMƏK VACİBDİR

### *Çimərliklərdə davranış qaydaları*

***Yayın gəlişi və havaların qızması ilə əlaqədar olaraq, insanlar daha çox çimərliklərdə istirahət etməyə üstünlük verirlər. Bu zaman hər bir kəs aşağıda göstərilən davranış qaydalarını bilməli və onlara riayət etməlidir:***





- çimərlikdə uşaqları nəzarətsiz qoymaq olmaz;
- çimərliklərdə spirtli içki içmək, habelə sərxoş halda gəlmək və ya çimmək olmaz;
- qadağan olunmuş yerlərdə çimmək olmaz;
- qeyri-çimərlik ərazilərində çimmək olmaz;
- çimmə zonasının işarələnmiş hüdudlarını keçmək olmaz;
- su axınlarında sahildən 20 metrdən artıq məsafəyə üzmək olmaz;
- çimmə zonasında balıq ovlamaq qadağandır;
- çimərliklərin ərazisinə şəxsi qayıqların və kiçik həcmli gəmilərin daxil olması qadağandır;
- xəbərdaredici nişan və lövhələrin tələblərinə riayət edilməlidir. Onları sındırmaq və ya şəxsi məqsədlər üçün istifadə etmək qadağandır;
- çimərlikləri zibilləməmək, təmizliyə riayət etmək lazımdır;
- uşaqlar çimərlikdən yalnız valideynlərin müşayiəti ilə istifadə edə bilər;
- xilasedicilərin (dalğıcların) çağırış və tələblərinə riayət edilməlidir.

## HƏKİM MƏSLƏHƏTİ

## DİARREYA ƏLAMƏTLİ KƏSKİN BAĞIRSAQ İNFEKSİYALARININ PROFİLAKTİKASI

Diarreya (ishal) – bağırsaq peristaltikasının güclənməsi (bağırsaqların hərəki funksiyasının pozulması), nəcisin sıyığabənzər konsistensiyadan duru hala qədər dəyişilməsi, bəzi hallarda tərkibində selik, qan, irin qatışıqlarının, sona qədər həzm olunmamış qida qalıqlarının aşkarlanması ilə səciyyələnir. Bu tipli xəstəliklərin qoşunların döyüş qabiliyyətinə vurduğu ciddi ziyanı nəzərə alaraq, epidemik ocaqların məhdudlaşdırılması və ləğvi üzrə tədbirlərin müntəzəm surətdə və keyfiyyətli aparılması vacibdir.

Kəskin bağırsaq infeksiyalarının profilaktikası Qoşunların tibbi təminatının aktual vəzifələrindəndir. Təcrübə göstərir ki, infeksiya mənbəyinin vaxtında aşkarlanması və təcridi, eləcə də törədicinin ötürülmə yollarının qırılması istiqamətində kompleks tədbirlərin aparılması ilə xəstəliyin qarşısını almaq mümkündür. Əsas diqqət isə təbii ki, konkret epidemik şəraitdə maksimal effekt əldə edilməsinə yönəlmiş tədbirlərə verilməlidir.

Profilaktikanın əsasını epidemik prosesin inkişaf mexanizmi nəzərə alınmaqla, əks-epidemik yönümlü sanitar-gigiyenik tədbirlər təşkil edir. Dizenteriya və digər diarreya (ishal) əlamətli kəskin bağırsaq infeksiyaları ilə xəstələnmə səviyyəsi bir neçə səbəbdən asılıdır. Bu səbəblər içərisində hərbi şəhərciklərin, əsgər yeməkxanalarının sanitar-gigiyenik vəziyyəti, keyfiyyətli su təchizatı, qida obyektləri işçiləri tərəfindən şəxsi, ictimai və istehsalat gigiyenası qaydalarının gözlənilməsi, eləcə də hərbi qulluqçuların maddi-məişət təminatının qənaətbəxşliyi, həyat və məişətinə tibbi nəzarətin effektivliyi xüsusilə önəmlidir.

Ümumiyyətlə, hərbi hissələrdə kəskin bağırsaq infeksiyaları əleyhinə profilaktik tədbirlər kompleks şəklində həyata keçirilməlidir. Bu işdə komandanlıq, maddi-texniki təminat xidmətləri, tibb xidməti və bütövlükdə şəxsi heyətin yaxından iştirakı mütləqdir.

**Eyni zamanda, həmin kompleks tədbirlər il ərzində mütəmadi olaraq həyata keçirilməlidir. Bu tədbirlərə aşağıdakılar aiddir:**

*- yerli su mənbələrini və su təchizatı sistemini gigiyenik normativlərə və sanitar-texniki qaydalara uyğun saxlamaq, onların çirkləndirilməsinə yol verməmək;*

*- şəxsi heyətin istifadə etdiyi suyun keyfiyyətinə laborator nəzarət məqsədilə hər ay (göstəriş olarsa, hər həftə) su nümunələri götürüb tədqiq üçün laboratoriyaya göndərmək;*

*- səhra şəraitində su təchizatını düzgün təşkil etmək;*

*- şəxsi heyətin keyfiyyətli su ilə kafi miqdarda (içmək, xörək hazırlamaq və təsərrüfat-məişət məqsədilə istifadə etmək üçün) təmin olunması;*

*- hərbi şəhərciyin ərazisinin və ayaqyoluların təmiz saxlanılması, maye çirkabın, tullantıların, zibilin vaxtında zərərsizləşdirilməsi və daşınması;*

*- qida obyektlərinin zəruri inventar, qabqacaq, yuyucu vasitələrlə təminatı, ərzaq məhsullarının daşınması, saxlanılması, qidanın hazırlanması texnologiyası və şəxsi heyətə paylanmasında gigiyenik normativlərə və sanitariya qaydalarına riayət olunması, iaşə obyektlərində təmizlik və profilaktik dezinfeksiya tədbirlərinin aparılması;*

*- hərbi qulluqçuların, xüsusən də iaşə və su təchizatı obyektlərində çalışanların şəxsi və ictimai gigiyena qaydalarına ciddi riayət etmələri, bu məqsədlə bütün şəraitin yaradılması;*

*- yeməkxanada və mətbəxdə qabqacağın, avadanlığın, masaların və digər inventarların keyfiyyətli yuyulması;*

*- infeksiya mənbəyinin vaxtında aşkar etmək məqsədilə qida obyektlərində və su təchizatı sistemində çalışanların ilkin və dövri tibbi müayinələrə cəlb edilməsi;*

*- kəskin bağırsaq infeksiyaları keçirənlərin aşkar edilməsi və qeydiyyata götürülməsi;*

*- yoluxma ehtimalı olan hərbi qulluqçuların tibbi müşahidəyə götürülməsi və onların bakterioloji müayinəyə cəlb edilməsi;*

*- xəstələrin və xəstəliyə şübhəli şəxslərin erkən aktiv aşkarı (sorğu, baxış, termometriya, laborator müayinələr), onların vaxtında təcrid və qospitalizə edilmələri;*

*- dezinfeksiya və dezinseksiya tədbirlərinin aparılması.*

**DQBİ-nin Tibb xidmətində**
**Sanitar-epidemiologiya dəstəsinin**
**rəisi – baş sanitar həkim**
**t/x polkovnik-leytenantı A.Musayev**

## İDMAN

**Mayın 24-25-də Ali Hərbi Məktəbdə idmanın sərbəst güləş növü üzrə Daxili Qoşunların birinciliyi keçirilmişdir. Yarışda 12 komanda olmaqla 84 hərbi qulluqçu öz qüvvəsini sınamışdır. Şəxsi və komanda birinciliyi uğrunda yarışın nəticələri aşağıdakı kimi olmuşdur:**

**55 kq.**
I yer - əsgər Kazım Cumalıyev (25032 saylı hərbi hissə)
II yer - əsgər Şəhriyar Seyfəlili (25031 saylı hərbi hissə)
III yer - əsgər Vüqar Ömərov (17072 saylı hərbi hissə)

**60 kq.**
I yer - əsgər Elvin Qasımov (17072 saylı hərbi hissə)
II yer - əsgər Adil Axundzadə (16076 saylı hərbi hissə)
III yer - gizir Mirmöhsün Qarayusubov (AHM)

**66 kq.**
I yer - kursant Nadir Şərifov (AHM)
II yer - baş çavuş Eldar Məmmədov (99713 saylı hərbi hissə)
III yer - əsgər Orxan Məmmədxanlı (17074 saylı hərbi hissə)

**74 kq.**
I yer - çavuş Məhəmməd Ağalarov (99713 saylı hərbi hissə)
II yer - kursant Azər Mahmudov (AHM)
III yer - kiçik çavuş Vüsal Sultanov (25032 saylı hərbi hissə)

**84 kq.**
I yer - əsgər Süleyman Mehdiyev (16075 saylı hərbi hissə)
II yer - əsgər Ülvi Əliyev (25032 saylı hərbi hissə)
III yer - əsgər Tamerlan Salahlı (16075 saylı hərbi hissə)

**96 kq.**
I yer - əsgər Rüstəm Xaçperov (16076 saylı hərbi hissə)
II yer - leytenant Seymur Rzayev (25031 saylı hərbi hissə)
III yer - kiçik çavuş Ruslan Kübarov (67987 saylı hərbi hissə)

**120 kq.**
I yer - çavuş Orxan Əsgərov (17072 saylı hərbi hissə)
II yer - əsgər Vüqar İsmayılov (67987 saylı hərbi hissə)
III yer - əsgər Məhəbbət Hacıyev (25031 saylı hərbi hissə)

**Şəxsi birincilikdə əldə olunan nailiyyətlərə görə komanda üzrə 17072 saylı hərbi hissə I yerə, 25032 saylı hərbi hissə II yerə, Ali Hərbi Məktəb isə III yerə layiq görülmüşdür.**

* * * *

Daha bir yarış idmanın çoxnövçülüyü üzrə daxili işlər orqanlarının hissələri arasında keçirilmişdir.

Turnirdə Daxili Qoşunları 6 idmançı və 1 nümayəndə təmsil edirdi. Yarışda 100 m məsafəyə qaçışda leytenant Elçin Qasımov (99713 saylı hərbi hissə) I yeri, 1000 m məsafəyə kiçik çavuş Röyal Cumayev (99713 saylı hərbi hissə) II yeri, kiçik çavuş Azər Həsənov (25032 saylı hərbi hissə) III yeri tutmuşdur. Daxili Qoşunların yığma komandası çoxnövçülük üzrə yarışda komanda birinciliyində II yerə layiq görülmüşdür.

**baş leytenant T.Əlizadə**

## SİQARETİN TƏHLÜKƏLİ FƏSADLARI

***Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən müəyyənləşdirilib ki, insanlarda ölüm riski yaradan əsas 8 xəstəlikdən 6-sı sırf siqaret çəkməkdən yaranır. Unutmayın ki, siqaretin tərkibindəki nikotin rəsmi olaraq narkotik maddə kimi qəbul edilir. Hər gün siqaret çəkən insanı "yarı narkoman" kimi də dəyərləndirirlər. Çünki siqaret də asılılıq yaradır. Lakin buna baxmayaraq, narkotika aludəçilərindən fərqli olaraq iradəsi güclü olan insanlar siqaretdən yaxa qurtara bilirlər.***

İnsan bədənində elə bir daxili orqan, elə bir sistem yoxdur ki, siqaretin təsiri altına düşməsin. Tüstü hara daxil olursa, ilk növbədə sıradan çıxan orqanlar da onlar olur. Məsələn, ağız boşluğu, tənəffüz yolları, mədə və s. Damar sistemləri sıradan çıxır, hətta uzun müddət - 10 ildən çox siqaret çəkən insanların ayaqlarında da xəstəliklər əmələ gəlir, hətta kəsiləcək dərəcəyə çatır.

Şəkərli diabet xəstələrində isə zədələnmiş damarları siqaret daha iflic vəziyyətə salaraq ikitərəfli mənfi təsir göstərir. Damarlarda pataloji dəyişikliklər daha erkən başlayır.

40-50 yaşdan sonra çox az insan siqaret çəkməyə başlayır. Ona görə də siqaretin fəsadları barədə əsasən, şagirdlər, tələbələr, bir sözlə, yeniyetmə və gənclər arasında müntəzəm olaraq təbliğat aparılmalıdır.

Müxtəlif peşə sahibləri arasında keçirilən sorğu nəticəsində məlum olub ki, ölkəmizdə 40-60 faiz kişilər, 10 faizə qədər isə qadınlar siqaret çəkirlər.

Nə qədər gec deyil, siqareti tərgitmək lazımdır. Bunun müxtəlif yolları var. Məsələn, müxtəlif saqqız formalarında nikotin tərkibli vasitələrdən, dərinin üstünə yapışdırılan nikotin tərkibli leykoplastrlardan, gipnozlar və elektron siqaretlərdən istifadə etməklə bu zərərli vərdişi azaltmaq və tərgitmək olar. Onların tərkibinə ona görə az miqdarda nikotin əlavə edilir ki, asılılıq olmasın və siqareti tədricən tərgitmək mümkün olsun. Bunlar individual olaraq müəyyənləşdirilir. Bu üsullardan əsasən iradəcə zəiflər istifadə edir. Lakin bütün hallarda iradəsi möhkəm olan insanlar heç bir vasitənin köməyi olmadan da siqareti tərgidə bilirlər.

Mütəxəssislər müəyyənləşdiriblər ki, siqaretin hüceyrə səviyyəsində izləri 6 ilə qədər qalır. Ancaq təxminən 6 aya tənəffüs sistemi, tənginəfəslik, öskürək və s. bərpa olunur. Bu zaman insanlar idmanla məşğul olmalıdır. Bir sözlə, siqaretin insan həyatı üçün heç bir xeyirli təsiri yoxdur. Əksinə, hər çəkilən siqaret insan ömrünü qısaldır.

## Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı və şəxsi heyəti polkovnik Məhəmməd Hacıyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Komandanlığı və şəxsi heyəti polkovnik Namiq Poladova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16073 saylı hərbi hissənin şəxsi heyəti kapitan Şamo İbrahimova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25031 saylı hərbi hissənin şəxsi heyəti kiçik çavuş Asim Kərimova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Rəşad Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 560-12-21

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000